# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

14 mart 2019-cu il
Cümə axşamı

№ 10 (3425)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV AĞSU VƏ ŞAMAXI RAYONLARINDA ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI İLƏ BAĞLI GÖRÜLƏN İŞLƏRLƏ YERİNDƏ TANIŞ OLUB

Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.

Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərlə tanış olub.

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Daha sonra Prezident İlham Əliyev rayon sakinləri ilə görüşüb, onlarla söhbət edib. Dövlətimizin başçısı Ağsu sakinlərinin ərizələrini qəbul edib. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışılıb, dövlətimizin başçısı sakinləri narahat edən məsələləri dinləyib.

Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verib.

Martın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı görülən işlərlə tanışlıq məqsədilə Şamaxıda səfərdə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə şəhərin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus yeni inşa olunmuş evə gəliblər. Bu ev zəlzələ zamanı qəzalı vəziyyətə düşmüşdü.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ailə üzvlərinin istək və xahişlərini dinləyiblər. Dövlətimizin başçısı bu məsələlərlə bağlı müvafiq tapşırıqlarını verib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salman Mümtaz küçəsinin sakinləri ilə söhbət ediblər, onları narahat edən məsələləri dinləyiblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vahid Şıxıyevin inşası davam edən evinə də baxıblar.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Teymur Əliyarbəyov küçəsində Elmira Həsənovaya məxsus yeni yaşayış evində də yaradılan şəraitlə tanış olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun mərkəzində Heydər Əliyev mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət ediblər, önünə gül dəstəsi qoyublar.

Zəlzələ zamanı şəhərin Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurovun evi də qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin evin yerində yeni inşa edilən evdə yaradılan şəraitlə maraqlanıblar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı və birinci xanım sonra zəlzələdən zərərçəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının təməlini qoyublar. Məlumat verilib ki, 20 Yanvar küçəsində tikilən 44 mənzildən ibarət dördmərtəbəli bina bütün zəruri infrastrukturla təchiz ediləcək, burada birotaqlı 4, ikiotaqlı 32 və üçotaqlı 8 mənzil olacaq.

Prezident İlham Əliyev gilizi bünövrəyə buraxıb, beton qarışığı tökən qurğu işə salınıb.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" çərçivəsində Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsiblər.

---

**Ölkəmizin rəhbəri martın 6-da Azərbaycan qadınlarını 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı martın 6-da Azərbaycan qadınlarının mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri martın 7-də Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Martın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Seneqal Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri cənab Maki Sallaya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Martın 8-də dövlətimizin başçısı Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Martın 9-da ölkəmizin rəhbəri "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlət başçımızın 11 mart 2019-cu il sərəncamları ilə Elçin Səfəralı oğlu Babayev Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad olunub, Bakı Dövlət Universitetinin rektoru təyin edilib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul edib.**

---

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ HƏRBİ QULLUQÇULARINA ALİ HƏRBİ RÜTBƏLƏRİN VERİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Muradov İnqilab Heydər oğlu
polkovnik Niftaliyev Səlim Cəfər oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il.*

---

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİ XANIM MEHRİBAN ƏLİYEVANIN FRANSA RESPUBLİKASINA SƏFƏRİ

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Fransa Respublikasına səfərə gəlib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti həmin gün "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild, "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali, Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti, professor David Hayat ilə görüşüb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu ölkənin Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub. Sonra Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirilib.

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

Martın 12-də Azərbaycanın Birinci vitse-prezidentinin Fransanın birinci xanımı Brijit Makron, Fransa Respublikası Milli Assambleyasının sədri Rişar Ferran, iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə də görüşləri olub.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva həmin gün Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

---

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 27 il ötür. Bu münasibətlə Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə-növbəti ildönümə həsr olunmuş təntənəli mərasim keçirilib.**

*Bax səh.2.*

---

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI HƏRBİ QULLUQÇULARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Xudiyev Vilayət Yunus oğlu – leytenant (ölümündən sonra)
Qasımov Elşən Oruc oğlu – əsgər (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abdullayev Namiq Yədulla oğlu – polkovnik
Bayramov Kamal Damad oğlu – polkovnik-leytenant
Əliyev Yaşad Ayıl oğlu – polkovnik-leytenant
Əsgərov Zöhrab Əvəzağa oğlu – polkovnik-leytenant
Fərəcov Fariz Mirzağa oğlu – polkovnik-leytenant
İbrahimov Əfqan Musa oğlu – polkovnik-leytenant
Məmmədov Emin Arif oğlu – polkovnik-leytenant
Musayev Alışan Həbsəət oğlu – tibb xidməti polkovnik-leytenantı
Umudəliyev Vaqif Rəşaiq oğlu – polkovnik-leytenant
Yusubov Natiq Yusif oğlu – polkovnik-leytenant
Rəhimov Zaur Şirinbəy oğlu – mayor
Rizvanov Anar Tofiq oğlu – mayor
Seyidov Orxan Mir Qafar oğlu – kapitan
Rüstəmov Elçin Kərəm oğlu – baş gizir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 27 il ötür. Bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri xiyabanda milli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.**

**Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" önünə əklil qoyulub. Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət olunub.**




Daha sonra Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə-növbəti ildönümə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.

Əvvəlcə salona Daxili Qoşunların Döyüş Bayrağı gətirilib. Ulu öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bugünü barədə geniş məruzə



ilə çıxış edib. Bildirilib ki, ümümmilli lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Daxili Qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün – 1992-ci ilin 12 mart tarixi "Azərbaycan Respublikasının Daxili Qoşunları Günü" elan olunmuşdur.

Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən Qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü və hərbi qulluqçulardan 9 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü qeyd edib.

Məruzəçi bildirib ki, 1994-cü ildən başlayaraq Daxili Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib.

Planlı şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu daha da yüksəlib, mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə möhkəmlənib.

Sonra çıxış edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov Daxili Qoşunların yaranmasının 27-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Cənab Ramil Usubov möhtərəm dövlət başçımızın ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib.



Qeyd olunub ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında şəxsi heyətin özünəməxsus rolu vardır.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin 7 mart 2019-cu il tarixli müvafiq sərəncamları ilə daha 16 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının, iki nəfərə isə ali zabit rütbəsinin verilməsinin, bayram ərəfəsində hərbi qulluqçuların maaşlarının artırılmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

O da nəzərə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Nazir R.Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

General-polkovnik Ramil Usubov ölkə Prezidentini əmin edib ki, Daxili Qoşunların bütün şəxsi heyəti bundan sonra da respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək.

Daxili Qoşunların yaranmasının 27-ci ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında ölkə başçısının sərəncamları, daxili işlər nazirinin və nazir müavini-Daxili Qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

*12 mart 2019-cu il.*

# YÜKSƏK PEŞƏKARLIQ, QƏTİYYƏT, SƏDAQƏTLİ XİDMƏT

**DİN Daxili Qoşunlarının yaradılmasının 27 ili tamam oldu. Daxili Qoşunların Biləcəri qəsəbəsində, Sumqayıt və Gəncə şəhərlərində yerləşən hərbi hissələrinin birləşmələri Silahlı Qüvvələrin şəxsi heyəti ilə çiyin-çiyinə döyüşlərə başladığı gün ümummilli liderimizin fərmanı ilə Daxili Qoşunlar Günü kimi təqvimimizə qovuşub.**

Döyüşlərdə Daxili Qoşunların əsgər və zabitləri bütün qüvvə və bacarıqlarını yalnız bir məqsədə-torpaqlarımızın etibarlı müdafiəsinə yönəldiblər. İlk şəhidləri baş leytenant, beynəlxalq dərəcəli idman ustası Rafiq İsmayılov və çavuş Hatəmxan Babayev bu müqəddəs yolda canlarını qurban veriblər. Ağdamın Papravənd kəndinin müdafiəsindən başlayan zəfər və qəhrəmanlıq yolu sonralar Ağdərə, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa və Füzulidə gedən döyüşlərdən keçib.

1993-cü ilin noyabrın 2-də ümummilli lider Heydər Əliyevin xalqa müraciəti ordu quruculuğunda yeni mərhələnin əsasını qoydu. Ölkə rəhbərinin bu çağırışından sonra Silahlı Qüvvələrimizdə yaranan canlanma və ruh yüksəkliyinin təsiri özünü çox gözlətmədi. Daxili Qoşunların hərbi hissələrindən ibarət qoşun birləşməsinin Arazqırağı işğal olunmuş rayonların polis və Ordu bölmələri ilə birgə Füzuli istiqamətində apardığı uğurlu hücum əməliyyatı 1994-cü ilin yanvar ayının 5-dən 7-dək Horadiz sərhədyanı yaşayış məntəqəsinin və 12-dən artıq kəndin işğaldan azad olunması ilə nəticələndi.

1993-cü il dekabrın 12-də Böyük Bəhmənli kəndi ərazisində güclü əks-həmləyə keçən düşmənin canlı qüvvə və texnikasının qarşısı alınarkən Daxili Qoşunların 5 əsgəri – manqa komandiri Şahin Abbasov, snayper Yalçın Qəhrəmanov, qumbaraatan Maqsud Daşdıyev, pulemyotçu Fərhad Yusifov və atıcı Siyavuş Rüstəmov tankın altında qalsalar da səngəri bir addım belə tərk etməyərək ölümləri ilə düşməni vahiməyə salıb qaçmağa məcbur etdilər.



Ulu öndər ideallarına sadiq qalan Daxili Qoşunların şəxsi heyəti çətin anlarda, tarixi sınaq vaxtı öz dövlətinə, Vətəninə, Ali Baş Komandanına sədaqətini daim nümayiş etdirmiş, həmişə yüksək peşəkar hazırlıq səviyyəsi ilə seçilmişdir. Daxili Qoşunların keçdiyi qəhrəmanlıq yolu asayişin, əmin-amanlığın bərpası istiqamətində fədakar xidməti əsl vətənpərvərlik nümunəsidir.

# DÜNYANIN AZƏRBAYCAN GERÇƏKLİYİ

**2018-ci il Azərbaycan neft-qaz sektorunda mühüm hadisələrlə zəngin oldu. Ötən il ərzində Azəri-Çıraq-Günəşli yataqlarından gündə orta hesabla 584 min barel, ümumilikdə 213 milyon barelə yaxın, yəni 29 milyon ton neft hasil edilib. AÇG-nin əməliyyat xərcləri təqribən 505 milyon dollar, əsaslı xərcləri isə 1 milyard 150 milyon dollar təşkil edib.**

"Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələri üçün xüsusilə uğurlu olub. İl ərzində "Şahdəniz"dən 11,5 milyard standart kubmetr qaz və 2,5 milyon ton (təqribən 20,5 milyon barel) kondensat hasil edilib. Beləliklə, yataqdan ümumi qaz hasilatının 100 milyard kubmetrə çatıb.

Ümumilikdə son 15 ildə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 250 milyard dollar sərmayə yatırılıb və bunun nəticəsində ölkə üzrə ümumi daxili məhsul istehsalı 3,3, o cümlədən qeyri-neft sektorunda məhsul istehsalı 2,8, sənaye potensialımız 2,6 dəfə artıb.

Ötən il bu məbləğ 160 milyon manat olub.

Təkcə ilin ilk ayında qeyri-neft sənayesinə 506,7 milyon manat sərmayə yönəldilib.

İlin ilk ayında ümumi sərmayənin 21,9 faizi dövlət, 78,1 faizi qeyri-dövlət sektorlarının sərmayədarları tərəfindən qoyulub.

Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 66,6 faizini təşkil edib.

Ölkə sahibkarlarına 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilib.

*N. Aytəkin*

# QARŞILAYIN, BAHAR GƏLİR...

**İnsan, kainat 4 ünsürdən - su, od, torpaq və küləkdən yaranıb. Hər il Novruzdan, günün bərabərləşməsindən əvvəl 4 çərşənbə qeyd olunur.**

Su ilə bağlı Novruz inancı elə sudan gəlir. Yeni ildə bulaq və çayın üzərindən tullanmaq o anlama gəlir ki, sənin ötənilki günahların yuyulub getdi. Deyirlər ki, Novruzun su çərşənbəsinin gecəsi çaylar və bulaqlar dayanır, hətta ağaclar torpağa əyilir. Əgər kimsə bayram gecəsi o sudan içsə, növbəti ildə xəstələnməyəcək.



Belə deyirlər ki, su çərşənbəsində övladı olmayan qadının başından qırxaçar camdan su töksən, övladı olar. Su çərşənbəsində qorxan adamın başından üç dəfə sağdan, üç dəfə soldan su töksən, qorxusu keçər və qorxan adama qorxduğu yerdə su içirirlər.



Odlar diyarı Azərbaycan ocaqla bağlı zəngin ənənələrə malikdir və bu, təmizlənmə, yenilənmə əlamətidir. Bir tonqalın üzərindən yeddi dəfə, yaxud yeddi tonqalın hər birinin üzərindən bir dəfə tullanmaq lazımdır. Tonqalı heç vaxt su ilə söndürmək olmaz. Sönəndən sonra qızlar və oğlanlar tonqalın külünü toplayaraq evdən uzağa atırlar. Bu, o anlama gəlir ki, ailə üzvlərinin tonqalda yanan bütün uğursuzluqları kül ilə birlikdə uzaqlaşdırılır.

Üçüncüsü yel çərşənbəsidir. Bəzi bölgələrimizdə çox əziz tutulur. Yel artıq azacıq oyanmış torpağı, təzəcə çığmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yellədir. Yel çərşənbəsi gecəsində söyüd ağacının altına keçib niyyət edib yel babanı çağırırlar. Əgər yel səsini eşidib əssə və söyüdün budaqları ağaca toxunsa, diləyin yerinə yetər.

Axırıncı torpaq çərşənbəsidir. Torpağı ana təbiət - Allahımız su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Torpaq çərşənbəsini "torpaq-çillə-beçə çərşənbəsi" də adlandırırlar. O, xalq arasında "ilaxır çərşənbə", "torpaq çərşənbəsi", "çərşənbə - suri" adları ilə də tanınır. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayıblar. Nənələrimiz "Səməni, saxla məni, ildə göyərdərəm səni"- deyib buğda isladıblar.

Ənənələrə görə, bayramın ilk gecəsi hər kəs öz evində olmalıdır. Adətlərə görə, bayır qapılar bağlanmır.

Bayram günü maraqlı adətlərlə zəngindir. "Lal su", "iynə falı", "duzlu kökə" el sınamaları olsa da, həm də maraqlı oyun-ənənədir. Axır çərşənbəni fişənglərsiz, hər məhəlləni, hər həyəti Novruz tonqallarsız ayrı təsəvvür etmək qeyri-mümkündür.

**Ocağınız yansın, süfrələriniz ruzili-bərəkətli olsun, əzizlərimiz!**

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

**Səsi eşidilməyənlərin, sorağı gəlməyənlərin axtarışındayam. Bu vaxta kimi tapdıqlarım, yaxud artıq "haqq-hesabı" bu dünyayla bitənlərin, ömürləri nağıllaşanların barələrindəki yazılarla təsəlli tapıram. Telefonumun adını "Səslər dünyası" qoyduğum qovluğunda səsi qalıb özü olmayanlar, bəlkə də çoxumuzun tanıdığı, sözün əsl mənasında, polisin təəssübkeşlərinin, peşəmizin cəfakeşlərinin adları əlifba sırası ilə yazılıb. Həm də qalın kitablara deyil, qalan kitablara yazılanda insan ömrü əbədiyyət qazanır...**

**Bəzən keçmişə, ötənlərə boylanmaq "əzab"ına qatlanmaqdan başqa çarəmiz qalmır. Aldığımız hər nəfəs bizi ölümdən bir an, bir addım, bəlkə də bir ömür ayırır...**



# "MÜBARİZ KEŞİKDƏ"nin YAŞIDI...

NBPİ Su Nəqliyyatında Polis İdarəsi rəisinin köməkçisi, polis polkovnik-leytenantı Firdovsi Həsənovun: "Bu gün elə "Mübariz keşikdə" ilə həmyaş olan polis veteranı Nadir Həsənovu axtarmasanız da o, sizi həmişə axtarır, hər cümə axşamı qəzetimizin yeni nömrəsi ilə tanış olur" fikri, düzü, məni yaman tutdu. "Bəs, qəzeti hardan alır" sualıma cavabı şirin Tovuz ləhcəsi ilə belə oldu: "Öyün tikilsin, polis ailəsi ola, "Mübariz keşikdə" olmaya?".

Aradım da, tapdım da. Dedilər ki, televizoru izləyir. "Cənab polkovnik, polis mayoru Təmirov...",- deyəndə gülümsədi və zarafatından qalmadı: "Təmirov, yoxsa veteran tapmayıb məndən yazmağa gəlmisən. Mənə hələ cavanam",- dedi. İkimiz də güldük.

Əvvəlcədən hazırladığım suallarla onu yormaq istəmədim. Ölkəmizdə, dünyada baş verən hadisələrdən danışıb söhbətin axarını onun ömür yoluna yönəldəndə: "Sözlü adama oxşayırsan, yol gəlibsən, əvvəlcə, bir çay iç, sonrası Allah kərimdi".

-Eşitdim ki, gileylənmisiniz, bizləri axtarmırlar, demisiniz.

Zəndlə üzümə baxıb: "Ay bala, ömrün bu vədəsindən boylananda sənin yaşında olduğum vaxtlar kino lenti kimi gözlərimin önündən keçir",-fikri ilə söhbətimizə körpü salan polis veteranı illərin o üzünə boylandı...

85 il əvvəl fevral ayında Goranboyun Qızılhacılı kəndində Bədəl kişinin ailəsində doğulub. Uşaqlığı odlu-alovlu müharibə illərinə düşüb. "Kirpiyi ilə od götürən, kişi işinə, qadın işinə qaçan anaların, bacıların, qara kağızı gələn ataların, oğulların ailələrindəki ağrılara, ağılara, eləcə də mətanətə, dözümə şahidlik edib. Orta məktəbi bitirib hərbi xidmətə yollanıb. Ordudan təxris olub qayıtdıqdan sonra sənədlərini daxili işlər orqanlarına verib. Sonra N.Rzayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə qəbul olunub. Leytenant rütbəsində təyinatını Ağdaşa veriblər. Yeddi ildən sonra xidmət yerini Ucara dəyişiblər. Müstəntiq işləyib. 1972-ci ildə Şamaxıya keçiriblər. İşləyə-işləyə Azərbaycan Dövlət Universitetinin Hüquq fakultəsində təhsil alıb. Şəmkirdə rəis müavini, rəis olub. Şəmkir RPŞ-nin inzibati binası da onun vaxtında cəmi 6 aya tikilib.

Şəmkir kimi böyük və kriminal şəhərdə cinayətkarlıqla qətiyyətli mübarizə aparmaq üçün təcrübəsi, peşəkarlığıyla yanaşı, rayon sakinləri ilə inama, etibara söykənən xoş münasibəti bir çox cinayətlərin açılmasında mühüm rol oynayıb. Şəmkirdə o zaman kriminal durumun ağırlığını daha qabarıq diqqətə çatdırmaq üçün daxili işlər naziri olmuş Cəfər Vəliyevin: "Yevlaxda bir nəfər şübhəlini gətirmək üçün bir polis bəs edir, Şəmkirdə isə bir nəfəri gətirmək üçün on polis bəs etmir" fikrini söhbət əsnasında sitat gətirir veteranımız.

Qazandığı uğurlarla, rəhbərlik tərəfindən təqdir olunan xidməti ilə heç zaman qürurlanmayıb, təkəbbürlənməyib. Gənclərə həmişə kömək edib, yol göstərib. Məlum hadisələrdən sonra ölkə daxilində, eləcə də daxili işlər orqanlarında baş verən neqativ hallara dözməyib və 1988-ci ildə istefa raportunu yazıb.

"Övladlardan necə, yolunuzu davam etdirən varmı" sualımdan sonra təkcə araya yox, bütün evə sükut çökdü. Susdu və gözünü bir nöqtəyə zilləyib handan-hana dilləndi: "Sağ olsun, DİN rəhbərliyi, övladlarıma etibar edirlər. Amma... oğlum Natiqə ömür vəfa etmədi...

Vaxtsız aramızdan gedən Qazax RPŞ-nin rəisi, polis polkovniki Natiq Həsənovu deyirdi...

Sözün bitdiyi məqam olsa da sükutu özü pozur: "Yazıya pozu yoxdur. Həmin gündən sol tərəfim sözümə baxmır. Yenə də sağ olsunlar, hospitalımızda şərait yaradırlar, diqqət və qayğı göstərirlər. Hə, o biri oğlum İftixar Kəpəz Rayon Polis İdarəsi rəisinin köməkçisidir. Kürəkənlərim də polisdirlər...

İllər öncə "Mübariz keşikdə" də köhnə kişilərdən birinə ünvanlanmış: "Bəs, siz nə düşünürsünüz, yoldaş katib?" sərlövhəli məqalədən olan sualı, əziz oxucularımız, indi sizə ünvanlamaq istəyirəm: ***"Bəs, siz nə düşünürsüz?***

***-85-in dizini qatlayan bu nər kişiyə:***

**"Kim ki, yüz il yaşamasa,**
**günah onun özündədir",-**
***deyək, deməyək?..***

*T.Hafiz*

# NƏTİCƏ BUDUR: VƏTƏNDAŞ MƏMNUNLUĞU

**Polis kapitanı Nicat Əliyevin Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsinin rəisi, polis mayoru Hikmət Vəliyevə: "Cənab mayor, Təranə Orucovaya dəymiş ziyan ödətdirildi, özü də burdadır, təşəkkür etmək istəyir",-deyəndən sonra artıq söz deməyə ehtiyac qalmadı...**

***-Ay oğul, Allah sizi var eləsin, ömrünüz uzun olsun. Siz olmasaydınız mən yollarda qalacaqdım. İndi pulumu da ödədilər, özüm də sevinə-sevinə evimə-Beyləqana gedirəm.***

Maraq mənə güc gəldi və bu dərdli qadının yollara, belə get-gələ düşməsinin səbəbini öyrənmək üçün soruşdum:

**-Ay xala, sizdən pulu nə üçün almışdılar?**

-Həyat yoldaşım, avtoqəza törətmişdi. O, cəza çəkəndə bir nəfərlə dostluq edirmiş. Həmin adam görür ki, yoldaşım yaşlıdır və azadlığa çıxmaq istəyir. Onun bu vəziyyətindən istifadə edib deyir ki, səni çıxardaram, qohumum güclü vəkildir. Yoldaşım daha deməyib ki, qohumun güclü vəkildirsə, sənin özünə niyə bir gün ağlamır. Əlqərəz, həmin adam da sonralar həbsxanadan çıxdı. Yoldaşım da mənə xəbər göndərdi ki, dediyi məbləği düzəlt, ver...

Və həmin adam da Təranə xanımı düz bir ildən çox süründürüb. Naəlac qalan qadın polisə üz tutub, kömək istəyib...



"Qardaş, görürsən də, sizə ünvanlanan məktublara bax, bu insanlar özləri yazırlar",- deyən Hikmət Vəliyevə nə deyəcəyimi bilmədim.Çünki o ürəyimdən keçənləri, hətta şübhə ilə yanaşdıqlarımı da dilə gətirmişdi...

Şöbə rəisi dedi ki, əvvəlki illərə nisbətən qeyri-aşkar şəraitdə törədilən cinayətlərin əksəriyyətinin açılmasına nail olunmuş, vətəndaşların pozulmuş hüquqlarının bərpa edilməsi üçün zəruri tədbirlər görülmüş, onlara dəymiş maddi ziyanın ödənilməsi üçün görülən tədbirlər daha da sərtləşdirilmişdir.

Ötən il İstintaq şöbəsinin müstəntiqlərinin icraatında 1034 cinayət işi olmuş, onlardan 196 cinayət işi 2017-ci ildən qalıq qalmış, 838 cinayət işi isə hesabat dövründə icraata qəbul edilmişdir. Həmin müddətdə dələduzluğun və digər cinayət əməlinin qurbanı olmuş vətəndaşlara dəymiş 1,850168 manatdan 1,599161 manatı ödətdirilmişdir ki, bu da ümumilikdə 86,43 faiz təşkil edir. Əvvəlki il bu rəqəm 79,9 faiz olub. 2018-ci ildə istintaq edilən cinayət işlərindən 469 cinayət işi üzrə istintaq tamamlanmışdır. Onlardan 431 şəxs barəsində 397 cinayət aktı məhkəmələrə göndərilmiş, 72 cinayət işinin icraatına xitam verilmiş, 217 şəxs barəsində istintaqı tamamlanmış, 198 cinayət işi məhkəmələrə göndərilmişdir. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən 12 cinayət faktı qeydə alınmışdır ki, onlardan da 3-ü digər cinayət işlərinə birləşdirilmiş, 8-ittiham aktı ilə məhkəməyə göndərilmiş, 1 cinayət işinə isə xitam verilmişdir. Polis mayoru Hikmət Vəliyev ötən dövr ərzində məhkəməyə göndərilən işlərin sayının xüsusilə üstünlük təşkil etdiyini də diqqətə çatdırdı.

Görülən işlərin qiyməti artıq bəllidir: Vətəndaş məmnunluğu, aldadılmış, cinayətə məruz qalmış insanların alqışı...

*H.Təmirov,*
*polis mayoru*

# İNSAN OLMAQ ÜÇÜN

**Əslində, həyatda hər bir adamın öz vəzifəsi var - yaşamaq... Düşünürsən ki, göz açdığın gündən yaşamağa başlamısan. Zaman ötür, böyüyürsən. Sınaqlar, enişlər-yoxuşlar, uğurlar və uğursuzluqlar gəlir. Pillələri addımladıqca yeni adamlarla tanış olursan, yeni dostlar həyatına rəng qatır. Ömür yolunda qazandıqlarınla yanaşı, itirdiklərin də olur.**

Həyatda insanın ən böyük müəllimi onun çətinlikləridir. Çətinliklər isə düşüncələrinin formalaşmasına birbaşa təsir göstərir və səni təcrübələndirir, yeni-yeni uğurlar qazanmağa sövq edir.

Gənclik dövründə istəklərini reallaşdırmağa başlayırsan, məqsədlərə doğru qaçırsan və heç yorulmursan. Günlərinin maraqlı olması üçün hər günə fərqli başlayırsan. Kamilləşdikcə öyrəndiklərini öyrətmək istəyirsən. Beləcə, illər ötür, yaşaya-yaşaya yaşlanırsan. Vay o adamın halına ki, gəncliyini, ahıllığını hərcayi işlərə, zərərli vərdişlərə sərf edir, özünün və ətrafındakıların həyatını cəhənnəmə çevirməklə yaşayır. Buna yaşamaq yox, yaşlanmaq deyirlər. Şairlərimizdən birinin müdrik sözləri yadıma düşdü: Bəziləri insan kimi yaşamır, əşya kimi köhnəlir...

Zənnimcə, hər kəs dünyaya əsas bir missiyanı yerinə yetirmək üçün gəlib və bu yol Vətənə, dövlətə, dövlətçiliyə, xalqa xidmətdən keçir. Bu missiya xüsusilə həyatın dinamik dövrünə, yəni, gənclik çağlarına təsadüf edir desək, daha doğru olar. Çünki sən bilirsən ki, bu günün gənci, sabahın gələcəyidir. Gələcəyin sahibi sənsən. Elə bu düşüncə səni Vətəninə, xalqına, cəmiyyətə xidmətə sövq edir.

*T.Əlizadə,*
*polis kapitanı*

# DAD YARIMÇIQ ƏLİNDƏN

**Kitab, yoxsa kompyuter, mütaliə, yoxsa facebook? Yanaşmalar müxtəlif ola bilər.**

Əlbəttə ki, zaman məfhumu mühüm rol oynayır və razılaşaq ki, texnologiyanın bugünki səviyyəsi istəsək də, istəməsək də bəzilərini onun "əsiri"nə çevirə bilib. Bax, qəbul edə bilmədiyim, razılaşmadığım məqam da məhz budur-xüsusilə də gənclərin telefonlardan asılılığı.

Yeri gəlmişkən, hər cür asılılıq, başqa cür desək, asılılığın hər bir növü zərərlidir, arzuolunmaz nəticələrə gətirib çıxarır, şüuru korlaşdırır və s.

Dərindən fikirləşəndə, görürsən ki, mobil telefon da, kompyuter də insan əməyinin, zəkasının, ümumi şəkildə götürsək, texniki intibahın məhsuludur.

Sözüm odur ki, mobil telefondan tutmuş, virtual oyunlara, sosial şəbəkənin imkanlarına, hər bir insanın azadlığına və təbliğatlarına qədər hər yerdə hərəkət hüququnuz var. Bunu idarə etmək, bu zaman idarə olunmamaq isə savad, düşüncə, vicdan işidir. Dad yarımçıq, yarımçıqlar əlindən...

Bir də çalışın ki, hər axşam yatmazdan öncə yarım saat kitab oxuyun. Sizi heç zaman tərk etməyəcək dost qazanacaqsınız.

Mən əməl edirəm, siz də edin...

*Ə.Teymur*

# YAŞATMAQ NAMİNƏ

**B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya institutunun əməkdaşlarının iştirakı ilə Qax Rayon Mərkəzi Xəstəxanasında talassemiyalı və hemofiliyalı xəstələrə dəstək olmaq üçün qanvermə aksiyası keçirilib.**

"Qan ver, yaşat!" devizi ilə gerçəkləşən humanist aksiyada Qax Rayon Polis Şöbəsinin şəxsi heyəti fəal iştirak edib. Onlar bu kimi xeyriyyəçilik tədbirlərinin keçirilməsini təqdirəlayiq hesab etməklə xəstə insanların heç də cəmiyyətdən kənarda qalmadıqlarını nümayiş etdiriblər. Bu aksiyaya qoşulmağı səhhəti imkan verən hər bir insanın vətəndaşlıq borcu olduğunu bildiriblər.

Polis əməkdaşları əvvəlcə tibbi müayinədən keçiriliblər, sonra isə qan vermək üçün masalara yaxınlaşıblar.

Qeyd edək ki, yığılmış qan Mərkəzi Qan Bankına təhvil veriləcək və talassemiya xəstəliyindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

*Mahir Məsimov,*
*polis leytenantı*

# GÖRÜNƏN DAĞIN BƏLƏDÇİLƏRİ

❖Ağrı verirsə keçmiş, keçməmiş deməkdir.

**Murethan Manqan**

❖Ayaqsız bir uşağa rast gələnə qədər ayaqqabısız olduğum üçün kədərlənirdim.

**Anatol Frans**

❖Ağıllı olmaq çətindir, ağıllı susmaq ondan da çətindir.

**Kristian Bauvi**

❖Bir adamın dəyəri böyük qalibiyyətləri ilə deyil, onlardan necə istifadə etdiyinə baxılaraq ölçülməlidir.

**Fransua de Laroşfuko**

❖Bitdi deyə sevinmə, yaşandı deyə sevin.

**Qabriel Qarsia Markeş**

❖Bağışlamaq və unutmaq yaxşı insanların intiqamıdır.

**Viktor Hüqo**

❖Ağıllı adam öz ağlından, daha ağıllı adam başqalarının ağıllarından istifadə edir.

**Bernard Şou**

❖Ağac bar verəndə başını aşağı əyər, amma hələ bar verənə qədər boy atmasına imkan vermək lazımdır.

**Əbu Turxan**

*Çapa hazırladı: V.Məmmədov*

# DÜNYA DÜZƏNİNİN DİRƏYİ SOSİAL ƏDALƏT

**Adam insan olanı ədalətə tapınıb. Əslində, insanlığın özü İlahi ədalətin meyvəsi, yaşam tərzinin ən bariz göstəricisidir. Ədalət hissi elə buna görə bəşər övladının ən ülvi istəyi, amalı, hədəfidir...**

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası hər il fevralın sonlarında Dünya Sosial Ədalət Günü kimi qeyd edilməsinə qərar verib.

BMT-nin bəyanatında sosial ədalətin həm ölkələrin daxilində, həm də dövlətlərarası münasibətlərdə dinc şəraitin və rifahın təmin olunmasının əsas prinsiplərindən biri olduğu vurğulanır. "Biz sosial ədalət prinsiplərini dəstəkləyirik, qadınlarla kişilərin bərabərliyini, yerli xalqların və miqrantların hüquqlarını müdafiə edirik. Həmçinin sosial ədalətin bərqərar olmasına köməyimizi əsirgəmirik, bu yolda cinsiyyət, yaş həddi, irqi, etnik və dini mənsubiyyət, mədəniyyət və ya əlillik zəminində bütün maneələr aradan qaldırılmalıdır". Bu fikirlər də bəyanatda qeyd olunur.

Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, bu gün dünyada 2 milyarda yaxın insan münaqişə və qeyri-sabitlik şəraitində yaşayır. Onlardan 400 milyonu 15-29 yaş arasında olanlardır. Yeni iş yerlərinin açılması dünya əhalisinin 40 faizi üçün aktual problemdir və onun həlli cəmiyyətlərdə bərabərlik prinsipinin təmin olunmasına, gərginliyin azaldılmasına və münaqişələrin qarşısının alınmasına şərait yaradacaq.

Azərbaycan dövlətinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemləri, qayğıları, çətinlikləri, rifahı dövlətimizin bir nömrəli vəzifəsi sayılır. Bunu dəfələrlə Prezidentimiz də vurğulayıb. Bu, quru sözlər deyil, uzun illərin gərgin, səmərəli, sosialyönlü fədakar xidmətlərin təzahürü və nəticəsidir.

***Bircə faktı demək kifayətdir ki, son 15 ildə iqtisadiyyatın dinamik inkişafı, büdcənin artım imkanları sosial problemlərin həllinə yönəldilib. Təkcə həmin dövr ərzində 2 milyon yeni iş yeri yaradılıb, işsizlik və yoxsulluq həddi 50 faizdən 5 faizə düşüb...***

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# MƏKTƏBLİLƏRƏ TÖVSİYYƏLƏR VERİLDİ

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntularının profilaktikası sahəsində maarifləndirmə tədbirləri davam etdirilir.**

**Növbəti belə tədbirlər paytaxtın Suraxanı, Yasamal və Qaradağ rayonlarındakı tam orta məktəblərin yuxarı sinif şagirdləri ilə keçirilib.**



Toplantılarda həmin rayonların Polis idarələrinin, İcra hakimiyyətlərinin nümayəndələri, eləcə də pedaqoji heyət, narkoloq və psixoloqlar iştirak ediblər.

Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Əkbər Əkbərov belə görüşlərin məqsədini açıqlayıb və əhəmiyyətindən danışıb. "Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikasında polisin rolu" və "İnternetdən təhlükəsiz istifadə qaydaları" mövzularında çıxış edən Ə.Əkbərov törədilən hüquqpozmaların fəsadları barədə geniş məlumat verib.

Suraxanı rayonundakı 114 saylı orta məktəbdə keçirilmiş görüşdə RPİ-nin rəis müavini, polis polkovniki Vəli Əliyev, Yasamal rayonundakı 225 saylı orta məktəbdə keçirilmiş görüşdə RPİ-nin İctimai təhlükəsizlik şöbəsinin rəisi, polis polkovnik-leytenantı Natiq Pircanov, Qaradağ rayonundakı Heydər Əliyev Mərkəzində keçirilmiş görüşdə RPİ-nin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Yaşar İsayev "Dini radikalizm nədir, onun zərərli təsirləri", "Təhsildən qərəzli şəkildə yayınmaların qarşısının alınmasında daxili işlər orqanlarının rolu", İcra Hakimiyyəti başçılarının müavinləri, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul əməkdaşları, VVAQ şöbələrinin əməkdaşları, narkoloq-həkimlər "Narkotiklər haqqında nə bilirik?", həmçinin "Erkən nikahın fəsadları və qarşısının alınmasında gənclərin fəallığının artırılması" mövzularında çıxışlar edərək ətraflı məlumat veriblər.

Çıxışlarda narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyi önə çəkilib, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük vəzifələrin və məsuliyyətin düşdüyü vurğulanıb.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, qeyd olunan mövzulara bağlı videoçarx nümayiş etdirilib.

*N.Cavadov,*
*polis kapitanı*

# ELAN

Bakı Şəhər Baş Polis İdarəsinə bilavasitə tabe olan Bakı Metropolitenində Polis Şöbəsi "Polisə ictimai dəstək" vakant vəzifəyə müsabiqə elan edir.

Müsabiqədə Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətini başa vurmuş, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, düzgün bədən quruluşlu, idman cüssəli, tam orta, orta-ixtisas və ya ali təhsilli olan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış və "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikası vətəndaşları (oğlanlar) iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanının rəhbərliyi ictimai asayişin qorunması üzrə funksiyaların (Polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaq.

Müsabiqədə iştirak etmək istəyən şəxslər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Əlavə məlumat üçün telefonlar: (012) 490-02-36

Ünvan: Zərgərpalan küç, 135 (Metronun "Nizami" stansiyasında)

***Bakı Metropolitenində Polis Şöbəsi***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında **(Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla) polis sahə rəisi, əməliyyat müvəkkili və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor** vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 150 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında keçirilir. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

**Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas və müəllim (pedaqoq) ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan,** həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər orqanlarında xidmətə bərpa olunan və yaxud yenidən qəbul edilən orta və böyük rəis heyəti vəzifələrində işləmiş və Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

**Quba (1), Qusar (1), Saatlı (1), Salyan (1), Şuşa (1), Hacıqabul (1), Kürdəmir (1), Göygöl (1) və Qazax (1) rayon polis şöbələrində vakant yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili üzrə inspektor vəzifəsi üçün müsabiqədə yalnız göstərilmiş rayonlarda yaşayan və qeydiyyatda olan azı 3 il pedaqoji staja malik şəxslər iştirak edə bilərlər.**

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri **Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **2019-cu il fevral ayının 18-dən mart ayının 30-dək *http://www.mia.gov.az/index.php?/az/content/29799/*** ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin yaşayış yeri üzrə qeydiyyatda olduğu ərazinin polis orqanına göndərilməsi barədə elektron poçt vasitəsilə məlumat aldıqdan sonra namizədlər həmin polis orqanlarına aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***ali təhsil haqqında diplom;***
- ***hərbi bilet (kişilər üçün);***
- ***əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramı və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 590-92-37; (012)-590-92-54;**
**(012) 590-93-27.**
**(012) 590-93-45; (012)-590-93-64;**
**(012) 590-95-23.**

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

**(hüquqşünaslar üçün)**

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminologiyanın əsasları.
-Mülki hüquq.
-BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsi.
-"Polis haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu.
-"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu.

**(Pedaqoji təhsillilər üçün)**

Daxili işlər orqanlarında yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili xidmətinə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Pedaqogikanın nəzəriyyəsi.
-Yaş psixologiyası.
-Sosial psixologiya.
-BMT-nin "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməsi.
-"Polis haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu.
-"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu.
-"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Kişilər üçün**

Qaçış: 100 (yüz) metrə – 15 saniyə;
1000 (min) metrə – 4 dəqiqə;
Turnikdə dartınma – 6 dəfə;
Qolların üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə;
Arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması –18 dəfə.

**Qadınlar üçün**

Qaçış: 100 (yüz) metrə – 19 saniyə;
1000 (min) metrə – 5 dəqiqə 30 saniyə;
Arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması –18 dəfə.




Bundan sonra Dubay polisi yol hərəkəti qaydalarını pozmağa görə cərimələri olan bütün sürücülərin mobil telefonlarına şəxsi ismarıc mətnləri göndərəcək. Mesajlarda qayda pozucusuna endirim əldə etmək hüququ əldə edib-etməməsi barədə məlumat veriləcək.

İsmarıcların hər üç aydan bir gəlməsi gözlənilir. Əgər bu müddət ərzində sürücü yol hərəkəti qaydalarını pozaraq yeni cərimələr almayıbsa, onun əvvəlki cərimələrinin məbləği müvafiq təlimata uyğun şəkildə 25 faizdən başlayaraq, azaldılacaq və ya tamamilə silinəcək və həmin şəd xəbər "xoşbəxtlik mesaj"larıyla sürücülərə çatdırılacaq.

*****

***Tac-Mahal ərazisində xidmət edən Hindistan polisi qeyri-adi silahla – quşatanla silahlandırılıb. Onlar məhz bu alət vasitəsilə turistləri meymunların hücumundan qoruyacaqlar.***

***Hind qanunları vəhşi heyvanları öldürməyi və yaralamağı qadağan etdiyindən polis quşatanlarla insanları müdafiə edəcək.***

***Meymunların aqressiv olmasına səbəb isə turistlərin özləridir. Belə ki, onları yemləyən turistlər qidanı tükətdikdə heyvanların hücumuna məruz qalırlar.***

*****

Böyük Britaniyanın Lankaster Universitetinin tədqiqatçıları əllərin təsvirinin köməyi ilə cinayətkarları yaxalamağa imkan verəcək texnologiya üzərində işləyirlər. Yeni texnologiya tamamilə yeni biometrik imkanlar təqdim edəcək. Damarların təsviri, dəri büküşləri, çapıqlar, tatuirovkalar və piqmentasiyanın kombinasiyası insanın eyniləşdirilməsi üçün əsas biometriya kimi istifadə olunur.

Əvvəllər cinayətkarları ifşa etmək üçün məhkəmədə bu metodlardan uğurla istifadə edilib. Layihə insanın kimliyini hərtərəfli müəyyənləşdirmək üçün "sərt biometriya" (barmaq izləri) ilə "yumşaq biometriya"nı birləşdirəcək.

Hazırda müxtəlif sahələri təmsil edən 5 min tədqiqatçı (anatomistlər, antropoloqlar, genetiklər, bioinformatiklər, qrafik mütəxəssislər və informasiya texnologiyaları mütəxəssisləri) birgə açıq mənbə kodlu proqramın yaradılması üzərində çalışır.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti polis yoldaşları Nurlan Bağırova atası

**ƏLİAĞA kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti rəis müavini Orxan Mansurzadəyə əzizi

**VÜQAR MAHMUDZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Orxan Mansurzadəyə əzizi

**VÜQAR MAHMUDZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov Orxan Mansurzadəyə əzizi

**VÜQAR MAHMUDZADƏNİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti iş yoldaşları Təyyar Rzaquliyevə əzizi

**ƏLƏMDAR kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30